HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 mart 2017-cı il
№006 (44)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI TÖRƏDİLMƏSİNDƏN 99 İL ÖTÜR




Erməni daşnaklarının bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 99 il ötür.

1918-ci il martın 30-u gecə Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın qətli ilə nəticələnib.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib. Kütləvi qırğınlar zamanı şəhərdəki Təzəpir məscidi aramsız top atəşinə tutulub, “İsmailiyyə” binası yandırılıb.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən azərbaycanlıların sayı 16 mindən artıq olub. Ermənilər Lənkəran, Muğan və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul edib. .

1998-ci il martın 26-da prezident Heydər Əliyev “Azərbaycanlıların soyqırımı haqqında” fərman imzalayıb. Həmin gündən 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunur.

## BAŞ NAZİR AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Baş Nazir Georgi Kvirikaşvili Gürcüstanda yaşayan azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik edib. O, Marneulinin mərkəzində əhaliyə müraciət edərək, onları Bahar bayramı münasibətilə təbrik edib.

Georgi Kvirikaşvili deyib: “Biz birlikdə, bir ailə kimi, güclü ölkəmizi, vətənimizi, Gürcüstanımızı yaradırıq və xeyirdə və şərdə bir-birimizlə yanaşı dururuq. Əminəm ki, gələcək nəsillərimiz əl-ələ verib ölkəmizin gələcəyini daha yaxşı quracaqlar. Mən sevinirəm ki, bizim belə sərvətimiz var, azərbaycanlı həmvətənlərimiz bizim sərvətimizdir. Həm də sevinirəm ki, siz dost ölkə Azərbaycanla sıx əlaqə saxlayırsınız. Sevinirəm ki, hamımızın fəxr etdiyimiz belə gənclərimiz var. Mən keçən il Novruz bayramında azərbaycanlı vətəndaşlarımızla görüşmüş və ölkəmizin daha yaxşı gələcəyini yaradan bu cür insanları görüb məmnun qalmışdım. Biz birlikdə çalışmalıyıq, yan-yana duraraq elə ölkə qurmalıyıq ki, ailələrimiz, uşaqlarımız, nəvə-nəticələrimiz daha yaxşı yaşasınlar. Bir daha təbrik edirəm. Ailələrinizi təbrik edirəm. Bugünkü bayramda biz böyük bir ailədə birləşirik”.

Əhalini səhnədən Novruz bayramı münasibətilə ölkə prezidenti Georgi Marqvelaşvili də təbrik edib.

## TÜRK İXRACATÇILARI AZƏRBAYCANA VƏ GÜRCÜSTANA SƏFƏR EDƏCƏKLƏR

Türkiyənin Şərqi Qara dəniz regionu ixracatçılar Assosiasiyasının nümayəndələri 2-6 may tarixində Azərbaycana və Gürcüstana gələcəklər. Bu barədə Assosiyasiyanın başçısı Ahmet Hamdi Gürdoğan məlumat verib. O, qeyd edib ki, Türkiyə İqtisadiyyat Nazirliyinin dəstəklədiyi səfər ölkələr arasında ticarət əlaqələrinin inkişafına yönəlib.

Türkiyənin Şərqi Qara dəniz regionu ixracatçılar Assosiasiyasının başçısı vurğulayıb: “Son illər ərzində Türkiyənin Azərbaycan və Gürcüstanla ticarət əlaqələrinin nəzərəçarpacaq dərəcədə inkişaf etməsinə baxmayaraq, istənilən səviyyəyə çatmayıb”. O, əlavə edib: “2016-cı ildə Türkiyənin Şərqi Qara dəniz regionunu ümumi ixracatının 13%-i Gürcüstanın və yalnız cəmi 1,7%-i Azərbaycanın



payına düşür ki, bu da regionun gerçək potensialını əks etdirmir”.

Gürdoğan Türkiyənin Azərbaycana və Gürcüstana ümumi ixracatının ən azı yarıdan çoxunun Şərqi Qara dəniz regionuna aid ola biləcəyini güman edir.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI ÜÇÜN Aİ İLƏ VİZASIZ REJİM FƏALİYYƏTƏ BAŞLADI



Martın 28-dən Gürcüstan vətəndaşları üçün Şengen zonasına vizasız rejim fəaliyyətə başlayıb. Gürcüstan vətəndaşları 180 gün ərzində 90 gün vizasız Şengen ölkələrində ola biləcəklər.

Vizasız rejim Aİ-nın 22 ölkəsini, Aİ-na üzv olmayan 4 ölkəni və Şengen zonasına namizəd 4 ölkəni əhatə edən Şengen zonasında hərəkət sərbəstliyi nəzərdə tutur.

Üzv ölkələr bunlardır: Belçika, Almaniya, Danimarka, İspaniya, Estoniya, İtaliya, Latviya, Litva, Lüksemburq, Malta, Niderland, Polşa, Portuqaliya, Yunanıstan, Fransa, Sloveniya, Slovakiya, Macarıstan, Finlandiya, İsveç, Çexiya.

Qeyri-üzv ölkələr: İslandiya, Lixtenşteyn, Norveç, İsveçrə.

Namizəd ölkələr: Bolqarıstan, Kipr, Rumıniya, Xorvatiya.

Avropa İttifaqının 2 ölkəsi – Böyük Britaniya və İrlandiya istisnalıq təşkil edir, Gürcüstan üçün onlarla viza rejimi saxlanılır.

2 MART AYININ BAYRAM MƏNZƏRƏLƏRİ

3 MÜBARİZ GÖYÜŞOĞLU: “AZƏRBAYCANLA GÜRCÜSTANIN TALEYİNDƏ ÇOX OXŞARLIQLAR VAR”

4 TÜRKİYƏNİN TALEYİNİ DƏYİŞƏCƏK REFERENDUM

5 TƏNQİDİ QƏBUL ETMƏK BACARIĞI

6 İNSANI UCALDAN DUYĞU – HƏYA

7 FƏLSƏFƏ İLƏ ƏDƏBİYYAT

## BMT GÜRCÜSTANI DƏSTƏKLƏYƏN QƏRAR QƏBUL ETDİ

BMT-nin İnsan Hüquqları Şurası (İHŞ) Gürcüstanı dəstəkləyən qərar qəbul edib. Tərkibində 47 dövləti birləşdirən İHŞ dünyada insan hüquqlarını qorumağa və həvəsləndirməyə məsuldur. Gürcüstan 2016-cı ildən onun üzvüdür. Gürcüstanın müzakirəyə çıxardığı qətnamə İHŞ-in 34-cü sessiyası çərçivəsində Cenevrədə qəbul olunub. “Gürcüstanla əməkdaşlıq” sənədinə İHŞ-in 43 üzvü tərəfdar olub.

Rusiya XİN bu sənədi “siyasiləşmiş” və “Abxaziya, Cənubi Osetiya və Rusiyaya qarşı yönəlmiş” sənəd adlandırıb. İHŞ-ın qətnaməsində qondarma respublikalarda insan hüquqlarının və humanitar vəziyyətin pozulması ilə əlaqədar narahatlıq ifadə olunub. Sənəddə vətəndaşların özbaşına saxlanılması faktlarına diqqət yetirilib. Abxaziyada və Cənubi Osetiyada etnik əlamətlərə görə diskriminasiyanın davam etməsi xatırladılıb.

İHŞ daxili köçkün şəxslərin və qaçqınların indiyədək təhlükəsiz şəkildə öz evlərinə qayıtmaq hüququndan məhrum olmasından narahatlığını bildirib. Sənəddə BMT-nin qaçqınların işi üzrə ali komissarına aid idarənin və insan hüquqları üzrə digər beynəlxalq və regional təşkilatların Gürcüstanın işğal olunmuş regionlarına birbaşa daxil olma imkanlarının olmaması qeyd edilib.

İHŞ tanınmış beynəlxalq sərhədlər daxilində Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə tərəfdar olduğunu təsdiqləyib.



## MART AYININ BAYRAM MƏNZƏRƏLƏRİ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Deyirəm bu mart kimi ayı gecə əli çıraqlı da axtarsaq tapa bilmərik, tayı-bərabəri yoxdur. Bayram bayram üstündən gəlir. Hələ orasını demirəm ki, əski Romada yeni il martın 1-dən başlayırdı və yəqin ki, ayın, elə ilin də başlanğıcı olan həmin gün bayram törənləri ilə qeyd olunurmuş. Elə indi də martın başlanğıcından, düzdür bir qədər gec, martın 3-dən bayramlara start verilir. İlk olaraq ölkəmizdə analar gününü bayram edib, anaların xeyir-duasını alırıq, ardınca 8 martda dübarə qadınları, bu dəfə ilk təbəssümünü səxavətlə ətrafdakılara paylayan beləkdəki əl boyda qızcığazdan tutmuş ağzında nübar üçün tək bir dişi də qalmayan qoca qarıya qədər bütün qadınları təbrik etmək gərəkir.**

Bu il məktəblilər üçün, elə müəllimlər üçün də bir həftəlik yaz tətilinin elan olunması mart ayının dəyərini birə yüz artırdı. Və çoxları təhsil və elm nazirimiz Cecelavanın bu səxavətli hərəkətini böyük mənunluqla qarşılayıb, onun balalarına alqış etməyi də unutmadı.

Martın 15-də məktəblilərin yaz tətili bitər-bitməz Novruz bayramına start verildi. Məktəblərdə, kəndlərdə, şəhərlərdə Novruz tonqalları yandırıldı, bayram şənlikləri düzənləndi. Düzdü bu bayram qeyd edilərkən çoxu rəhmətlik Molla Pənah Vaqifin "Bayram oldu heç bilmirəm neynəyim" misrası ilə başlayan qoşmasını yada salmalı oldu və neyləyim, necə eləyim kimi mənfur bir sualın cavabını axtarsa da, tapa bilmədi.

Həm də yazın gəlişinin bayram edilməsi ilə eyni vaxtda bir çox beynəlxalq bayramlar da qeyd olunurdu və bu da yazın gəlişini bayram edənlər üçün əlavə fürsətlər, bu günü bayram etməyən toplumlar üçünsə ən azından bayram ovqatı yaradırdı. Məsələn, martın 20-də bayram edilən dünya xoşbəxtlik günü adamın dodaqlarına ani də olsa bir təbəssüm qondura bilir və adam bunu eşidincə özünə sual vermək istəyir: yahu, görən mən xoşbəxtəmmi? Düzdür, əksər hallarda bunun cavabı könüloxşayan olmaya bilər. Nə olar, hamı xoşbəxt olmaz ki, deyib bunun üstündən keçmək də mümkündür. Amma, dübarə bir sual da könlünü didər ki, yahu, nədən xoşbəxt deyiləm və bu suala da hərə bir cür cavab verər. Sonra da adam özünü təsəlli edər ki, xoşbəxtlik deyilən nisbi bir anlayışdır və bu dünyada nə qədər insan var, xoşbəxtliyin də bir o qədər tərifi var. Orasını da düşünürəm ki, heç kim xoşbəxtlik deyilənin dəqiq nə olduğunu bilmir və hər adam onu özünəməxsus şəkildə qavrayır. Kimi xoşbəxtliyini maddiyə, kimi də mənəviyə bağlayır. Kimin haqlı olmasını söyləmək isə işin ən müşgül tərəfidir. Bu bayramla ilgili düşüncələrimə burada son da verə bilərdim. Di gəl ki, Dünya Xoşbəxtlik Reytinqi deyilən bir siyahı məni bu fikrimdən daşındırdı və ölkəmizin bu reytinqdə 155 ölkə arasında 125-ci olması məni xeyli qayğılandırdı və mən bir qədər əvvəl fərdi şəkildə səsləndirdiyim "mən xoşbəxtəmmi" sualını ictimailəşdirərək soruşmaq istəyirəm: "Biz xoşbəxtikmi?". Cavabında xoşbəxtiksə niyə siyahının 125-ci pilləsindəyik deməkdən özümü saxlaya bilmirəm. Neynəyim, xasiyyətim belədir, Dədə Ələsgər demiş: Desəm öldürərlər, deməsəm ölləm...

Martın 24-ü Beynəlxalq vərəmlə mübarizə günü kimi qeyd olunur və mən bunu alqışlayıram. Nədən ki, bu xəstəlikdən əziyyət çəkənlər yad edilir, bir günlük də olsa, cəmiyyətin diqqəti onlara yönəldilir. Diqqətəlayiqdir, deyilmi? Sevindiricidir ki, 2011-ci ildən ölkəmizdə bu xəstəliyə tutulanların sayında əməlli-başlı azalma gedib. Əgər 2011-ci ildə Gürcüstanda hər 100 min nəfərə 123 vərəmli xəstə düşürdüsə, 2016-cı ildə bu göstərici hər 100 min nəfərə cəmi 90 nəfər olub. Pis göstərici deyil, eləmi? Ancaq bunun da "əmma"sını söyləmədən keçə bilməyəcəm: bu azalma ölkəmizdə əhalinin sayının azalması fonunda baş verməyibmi?

**Amma, nəyə desəniz and içərəm ki, qəsdim bu gözəlim mart ayında sizin kefinizi qaçırmaq, əhvalınıza soğan doğramaq deyil. O üzdən də yazımı nikbin notlarla bitirməyə qərar verirəm. Martın bitməsinə sayılı günlər qaldığı bir vaxtda, yəni ayın 28-də Avropa Birliyinə, daha dəqiqi isə Şengen zonasına, lap dəqiqləşdirsək Avropanın 30 ölkəsinə vizasız səfərlər edə biləcəyimiz gerçəkləşdi və xeyli sayda vətəndaşımız artıq bu yenilikdən yararlanıb, səyahətlərə çıxa bildi. Onlara uğurlu yolçuluqlar diləyib, yazımı nöqtələmək niyyətindəyəm. Nədən ki, dilimin andı var, bu məsələyə heç bir "noğda" qoyub kefinizi qaçırmayacam. Bir onu demək istəyirəm ki, vara-yoxa baxmadan bu fürsətdən yararlanmağa dəyər. O üzdən ki, dünya görgötür dünyasıdır...**

## QARDABANİDƏ NOVRUZ ŞƏNLİKLƏRİ KEÇİRİLDİ

2017-ci il martın 20-də Qardabani şəhərində Novruz bayramı böyük təntənə ilə qeyd edilib. Rayon ictimaiyyəti bayramı gəzinti və konsertlərlə qeyd etmiş, rayonun müxtəlif kəndlərindən Qardabaniyə toplaşan qonaqlar bayrama həsr edilmiş rəngarəng tədbirlərin iştirakçısı olublar. Şəhərin ana küçəsi ilə hərəkət edən Novruzun əsas obrazları – Bahar qızı, Keçəl və Kosa mərasim iştirakçılarında xoş ovqat, gözəl əhval-ruhiyyə yaradırdı. Al-əlvan bəzədilmiş faytonla, qara zurnanın müşaiyətilə rayon mərkəzində yerləşən Dostluq evinə doğru irəliləyən Bahar qızı burada rayon rəhbərliyinə Novruz xonçaları təqdim etdi.



Bayram mərasiminin açılışını edən Dostluq evinin direktor müavini Qəzənfər Qulamov toplaşanları bayram münasibətilə təbrik edərək, onlara sevinc dolu günlər arzuladı.

Sonra meydan musiqiçilərə verildi. Nəsib Cəfərovun rəhbərlik etdiyi "Sadaxlı" ansamblının ifasında xalq mahnılarından və təsniflərdən ibarət konsert proqramı mərasim iştirakçılarının ürəyincə oldu. Azərbaycan Respublikasından dəvət olunmuş müğənni Talıb Talenin ifası da mərasimin coşqunluqla keçməsində az rol oynamadı. Novruza həsr olunmuş bayram konsertində zurnaçılar dəstəsinin, saz ifaçılarının da özünəməxsus payı var idi.

Konsertdə Qardabani 3 saylı Azərbaycan məktəbinin, 1 saylı gürcü məktəbin, Vaxtanqisi 1 saylı ictimai məktəbinin şagirdləri çeşidli ifaları ilə bayram iştirakçılarını təbrik etdilər.

Xatırladaq ki, bayram çərçivəsində bir neçə ildir dalbadal keçirilən, artıq ənənə şəkli almış nərd yarışması da təşkil edilmiş, qaliblərə diplom və xatirə hədiyyələri təqdim olunmuşdur.

Sonda rayon Dostluq evinin direktoru Şəmistan Vəliyev toplaşanları bayram münasibətilə təbrik edərək, Novruz bayramına həsr olunmuş təntənələrin başa çatdığını elan etdi.

## GYMD-DƏ AZƏRBAYCANDAN GƏLƏN QONAQLARLA GÖRÜŞ KEÇİRİLİB



"Müasir İnkişaf" İctimai Birliyinin sədri, "Türk Eli" jurnalının baş redaktoru Mübariz Göyüşlü 24-26 mart 2017-ci il tarixində Gürcüstandakı təşkilatlarla əməkdaşlığı genişləndirmək məqsədi ilə bu ölkəyə səfər edib.

Martın 24-də M.Göyüşlü Tbilisidə yerləşən Axundov adına Mədəniyyət Muzeyində Azərbaycanın Gürcüstandakı Səfirliyinin birinci katibi Elçin Məmmədov və muzeyin direktoru Leyla Əliyeva, Gürcüstan Milli Parlament Kitabxanasının direktoru Georgi Kikelidze, Gürcüstan Kitabxana Assosiasiyasının prezidenti Rusudan Asatiani, kitabxana resursları departamentinin rəhbəri Levan Taktakişvili ilə görüş keçirib, qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparıb.

Martın 25-də isə Mübariz Göyüşlü və digər qonaqlar Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki ofisində qurumun sədri Musa Hacıyevin başçılığı altında təşkilatın gördüyü işlər, həyata keçirdiyi layihələrlə tanış olub, fikir mübadiləsi aparıblar.

25 martda Mübariz Göyüşlü gürcü politoloqlar - Qafqaz Strateji Araşdırmalar İnstitutunun sədri Teymuraz Toumunaşvili, təmsilçiləri Levan Çxeidze, Tengiz Tikilava, Simon Kopadze ilə görşərək Azərbaycan-Gürcüstan münasibətləri, iki ölkənin ictimai təşkilatlarının əməkdaşlığı məsələsini müzakirə edib. 26 martda "Müasir İnkişaf" İctimai Birliyinin sədri Gürcüstan Müsəlmanları İdarəsinin müftisi hacı Yasin Əliyevlə görüşüb fikir mübadiləsi aparıb, Kosalı mədrəsəsini də ziyarət edib.

Xatırladaq ki, "Müasir İnkişaf" İctimai Birliyi 2010, 2011, 2012, 2014, 2016-cı illərdə Gürcüstanla bağlı Bakıda və Tbilisidə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyi ilə birgə tədbirlər, görüşlər, müzakirələr həyata keçirib. Bu səfər həmin tədbirlərin və çalışmaların daha da genişləndirilməsini nəzərdə tutur.

## 31 MART SOYQIRIMI QURBANLARININ XATİRSİ YADDAŞLARDAN SİLİNMƏYƏCƏK

31 mart- Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Azərbaycanın Gürcüstandakı səfirliyində anım mərasimi təşkil olunub.

Mərasimdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, ABŞ-ın və Bolqarıstanın Tbilisidəki səfirliklərinin əməkdaşları, Gürcüstanın hökumət üzvləri, siyasətçilər, tarixçi alimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Səfir Dursun Həsənov tədbiri açaraq erməni-bolşevik birləşmələri tərəfindən Azərbaycan ərazisində törədilən vəhşiliklər haqqında məlumat verib.

Mərasimdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Terrorizm və Problemləri Araşdırma Mərkəzinin sədri, Badri Naçkebia, Suxumi Dövlət Universitetinin professoru, tarixçi alim Quram Marxuliya Gürcüstan Ağsaqqallar Şurası sədrinin müavini Mayak Nemətov çıxış edərək, bu soyqırımı hadisəsinə öz münasibətlərini bildiriblər.

# MÜBARİZ GÖYÜŞLÜ: "AZƏRBAYCANLA GÜRCÜSTANIN TALEYİNDƏ ÇOX OXŞARLIQLAR VAR"

*Martın 25-də Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki ofisində "Müasir İnkişaf" İctimai Birliyinin sədri, "Türk Eli" jurnalının və dialoq.info saytının redaktoru, Azərbaycan Milli Elmlər Akademiyasının məsul işçisi Mübariz Göyüşlü ilə təşkilatın nümayəndələrinin görüşü olub. Görüşdən sonra qəzetimizin əməkdaşları Mübariz Göyüşlü ilə söhbətləşib, ondan müsahibə alıblar.*

H. B. - Mübariz bəy, Gürcüstana, bizim yerlərə xoş gəlmisiz. Sizi "Yeni yol" adından, eləcə də oxucularımız adından salamlayırıq.

M. G. - Təşəkkür edirəm, sizə və sizin vasitənizlə oxucularınıza ən səmimi istəklərimi çatdırıram. 2005-ci ildən başlayaraq Gürcüstana həm işgüzar, həm də istirahət məqsədli səfərlər edirəm. Ötən hər dəfə qonşu ölkəni daha da inkişaf edən görmək, soydaşlarımızın aktiv çalışmalarını izləmək, birgə fəaliyyətlər planlaşdırmaq çox xoşdur.

E. Ə. - Sizin fəaliyyətiniz barədə az-çox məlumatımız var. Bir ictimai təşkilata rəhbərlik etdiyinizdən, "Türk Eli" kimi bir dərginin, eləcə də bir saytın redaktoru və rəhbəri olmanızdan xəbərdarıq. Mümkünsə təşkilatınız barədə, ümumiyyətlə fəaliyyət istiqamətləriniz barədə danışaq.

M. G - "Müasir İnkişaf" İctimai Birliyi 5 iyun 2017-ci il tarixdə 12 yaşını tamamlayacaq. Ötən müddət ərzində bir sıra çalışmalara imza atmışıq. Bu sırada xüsusi olaraq "Azərbaycan Milli Kimliyi", "GMO terroru" kitablarının adlarını çəkmək istərdim. Bundan başqa "Milli dövlətçilik ideologiyası", "Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi" konsepsiyalarının müəllifiyik. Ortaq türk əlifbası və ədəbi dili mövzusunda ictimai dəstək aksiyası həyata keçirmiş, ideyanın yayılmasında, ictimai təşkilatlar tərəfindən həm Azərbaycanda, həm Türkiyədə dəstəklənməsinə nail olmuşuq. Türk dövlətləri tərəfindən rəsmi bir tarix kimi təsdiqlənən 3 oktyabr Dünya Türklərinin Həmrəylik günü ideyasının müəllifiyik. Çalışmalarımızın müəyyən bir qismini Gürcüstanda, Türkiyədə, Rusiyada da rellaşdıra bilmişik. Bakıda adıçəkilən ölkələrdən qatılan nümayəndlərin iştirakı ilə regional təhlükəsizlik, əməkdaşlıq məsələlərinə dair beynəlxalq konfranslar reallaşdırmışıq. Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası, dini qurumlarla İş üzrə Dövlət Komitəsi, Türkiyənin Azərbaycandakı səfirliyi, TİKA-nın maliyyə dəstəyilə millətimiz və dövlətimiz üçün önəmli layihələrə imza atmışıq. Təşkilatın tərkibində araşdırmaçılardan ibarət "Milli Kimlik" Araşdırma Mərkəzi, tələbə gənclərdən ibarət "Vətənpərvər Gənclər" Klubu fəaliyyət göstərir. Xarici ölkələrdə, o cümlədən Gürcüstanda təmsilçiliyimiz fəaliyyət göstərir. Qurban bayramı münasibətilə hər il yardım kampaniyaları həyata keçiririk. Bunlarla yanaşı təşkilatın "Türk Eli" jurnalı və dialoq.info saytı fəaliyyət göstərir. Jurnalda elmi-ictimai-ideoloji məqalələr daha çox üstünlük təşkil edir. Sayt vasitəsilə isə ölkəmizdə və regionumuzda baş verən önəmli xəbərlər yayılır. "Türk Eli" jurnalında yer alan məqalələr öz çəkisinə və əhəmiyyətinə görə Azərbaycan ictimai-ideoloji mühitində mühüm yer tutur.

H. B. - Nəşr etdirdiyiniz dərgi əsasən hansı məsələlərdən bəhs edir, oxucularına fərqli hansı məhsulları, xidmətləri təqdim edir? Zəhmət olmasa bu barədə məlumat verin.

M. G. - Ümumiyyətlə qeyd edim ki, bizim təşkilatımız ideoloji sahədə fəaliyyət göstərir. İdeyamız Azərbaycançılıq və Türk-İslam dəyərləridir. Bu ideyaları təbliğ etməklə yanaşı qonşu ölkələrdəki soydaşlarımızla, onların qurduqları təşkilatlarla əlaqələrə də xüsusi önəm veririk. Təşkilata məxsus olan "Türk Eli" jurnalı da fəaliyyətini, təbliğatını əsasən bu istiqamətdə aparır. 2006-cı ildən fəaliyyətə başlayan jurnalın ilk üç sayı "Dialoq-XXI əsr" adıyla çap olunub. 2008-ci ildən jurnal ideyasına uyğun olaraq "Türk Eli" adıyla çapına davam edir. Jurnalda Azərbaycan müəllifləri ilə yanaşı digər ölkələrdən olan müəlliflərin də Türk birliyi, İslam dəyərlərinin təbliği, azərbaycançılıq ideya-siyasi xəttinin formalaşması, Dağlıq Qarabağ problemi, tariximiz, milli-mənəvi dəyərlərimiz, milli kimliyimizlə bağlı yazıları yer alır. Jurnalın məqalələrinin müəyyənləşdirilməsində, təbliğatında Azərbaycan bayrağının rənglərindəki ideoloji xətt bizim üçün əsasdır.

E. Ə. - Mübariz bəy, siz həm də Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında məsul vəzifədə çalışırsız. Belə bir elmi müəssisənin kitabxanasında işləmək, üstəgəl ictimai bir təşkilatda təmsil olunmaq, naşirlik fəaliyyətilə məşğul olmaq, bütün bunların bir arada öhdəsindən gəlmək sizin üçün çətinlik yaratmır ki?



M. G. - Asan başa gəlir desəm qeyri-səmimi cavab vermiş olaram. Bilirsiniz ki, Azərbaycan Milli Elmlər Akademiyası, onun institutları və təşkilatları, o cümlədən mənim çalışdığım Mərkəzi Elmi Kitabxana Azərbaycan elminə, təhsilinə, mədəni-ictimai mühitinə çox böyük töhfələr verir. Belə bir qurumda çalışmaq həm şərəfdir, həm də məsuliyyətdir. Digər tərəfdən mən 12 ildir ki, ictimai mühitdə aktiv çalışmaları ilə seçilən "Müsir İnkişaf" İctimai Birliyinə rəhbərlik edir, "Türk Eli" jurnalının və dialoq.info saytını baş redaktoru kimi çalışıram. Bundan başqa Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində "Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin informasiya təminatı" mövzusunda dissertasiya işi üzərində çalışıram. Bütün bunlar hamısı çox ağır, ağır olduğu qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər də şərəfli işlərdir. Səmimi deyim ki, mən öz işimi sevdiyim və bütün gün ərzində onlarla sevə-sevə məşğul olduğum üçün hər birində nəticələrə nail ola bilirəm. Mən hesab edirəm ki, insan sevdiyi işlə məşğul olarsa, heç bir yorğunluq hiss etməz və çox ciddi çalışmalar da həyata keçirə bilər. Biz Azərbaycan türkləri çox çalışmalıyıq, çünki görüləsi və həyata keçiriləsi daha vacib işlərimiz hələ qarşıdadır.

E. Ə. - Heç kimə sirr deyil ki, Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə əməkdaşlıq münasibətləri yüksələn xətlə inkişaf etməkdədir. Əgər sirr deyilsə, sizin Gürcüstana səfəriniz nə məqsəd daşıyır? Bu barədə oxucularımıza məlumat verərdiniz.

M. G. - Müsahibənin əvvəlində də qeyd etdiyim kimi 2005-ci ildən etibarən Gürcüstana səfərlər edirəm, müxtəlif işlər həyata keçirirəm. Soydaşlarımızın böyük bir qisminin məskunlaşdığı qonşu ölkəyə diqqət göstərməmək, bununla bağlı çalışmalar həyata keçirməmək yanlış olardı. Gürcüstan, Tiflis, burada yaşayan soydaşlarımızın çalışmaları həm Azərbaycan üçün, həm də Cənubi Qafqaz bölgəsi üçün mühüm əhəmiyyət daşıyır. Son illər Gürcüstanın, burada yaşayan azərbaycanlıların, nümunədə sizin təşkilat da daxil olmaqla digər qurumların əldə etdikləri uğurlar bizləri sevindirir. Hesab edirəm ki, bizim kimi ictimai təşkilatlar Azərbaycan-Gürcüstan münasibətlərinin sıxlaşdırılmasında, iki ölkədə mövcud olan problemlərin həllində bacardığı qədər rol oynamalıdır. Bu istiqamətdə 2010, 2011, 2012, 2015, 2017-ci illərdə çalışmalarımız olub. Qarşıda bunu daha da genişləndirməyə çalışacağıq.

H. B. - Gürcüstana bir neçə günlük səfər təəssüratınız necədir və ya ölkəmizdə gördükləriniz, müşahidə etdikləriniz barədə danışmanızı xahiş edirik.

M. G.- Gürcüstan hər ay, hər il çox sürətlə inkişaf edir ki, bu da bizləri çox sevindirir. Hər dəfə bu ölkəyə səfərə gələrkən sanki onu yenidən kəşf etmiş kimi oluram. Tiflis şəhərində olmaq, Gürcüstanda azərbaycanlıların sıx yaşadığı əraziləri gəzmək sanki ruhumuza mənəvi qida verir. Mən bu təəssüratlarımı hər yerdə hər kəslə bölüşürəm. Azərbaycanla Gürcüstanın taleyində çox oxşarlıqlar var. Xüsusilə hər iki dövlətin ümumi düşmən tərəfindən torpaqlarının işğal edilməsi, bölgədə destruktiv rol oynayan Ermənistan tərəfindən ərazi iddiaları ilə qarşılaşması bizlərin birliyini şərtləndirən amildir. Bütün bunlara baxmayaraq Gürcüstan da Azərbaycan kimi sürətlə inkişaf edir, müstəqilliyini daha da möhkəmləndirir. Gürcüstanın demokratiya və insan hüquqları sahəsində həyata keçirdiyi islahatları yüksək dəyərləndirirəm. Ölkənin Avropaya inteqrasiyası mühüm faktordur. Dövlətin soydaşlarımıza münasibəti də təqdirəlayiqdir. Lakin biz bunlarla qane olmamalıyıq, daha da çox çalışıb, daha böyük nəticələr əldə etməliyik. Ona görə də bu işlərdə hər birimizə uğurlar arzulayıram.

Söhbətləşdi: Hacı BƏKİROĞLU, Elsevər ƏHMƏDOV

## KUMSİŞVİLİ: "AZƏRBAYCAN GÜRCÜSTANIN ƏSAS STRATEJİ TƏRƏFDAŞIDIR"



"Azərbaycan Gürcüstanın əsas strateji tərəfdaşıdır və biz bu münasibətlərin inkişafında maraqlıyıq". Gürcüstan Baş Nazirinin müavini, maliyyə naziri Dimitri Kumsişvili bu fikri Report-un Gürcüstan bürosuna verdiyi müsahibədə səsləndirib.

Onun sözlərinə görə, bu gün Azərbaycan və Gürcüstan regionda bir sıra nəhəng iqtisadi layihələr gerçəkləşdirirlər. O, qeyd edib: "İşlər bir neçə layihə üzrə aparılır. Bu layihələr Gürcüstanın və Azərbaycanın, eləcə də regionun və bütövlükdə Avropanın inkişafında mühüm rol oynayır".

Dimitri Kumsişvili bildirib: "Biz bu layihələrə daha çox ölkə cəlb etməyə çalışırıq, bu, bizə daha böyük uğur qazanmağa imkan verəcək".

## AZƏRBAYCANDAN GÜRCÜSTANA İXRAC 38% ARTIB

Cari ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Gürcüstana mal ixracı 38% artaraq 127,55 milyon dollar təşkil edib. Məlumatı Milli Statistika Xidməti yayıb.

Ümumilikdə Gürcüstanın əsas ixracatçıları arasında Azərbaycan 12%-lə ikinci yeri tutub. Ən böyük ixracatçı isə Türkiyədir. Onun ixrac həcmi 163,35 milyon dollar və ya 15,3% təşkil edib. Üçüncü pilləni isə 103,6 milyon dollarlıq və ya 9,7%-lik ixracla Rusiya tutub.

Ümumilikdə 2017-ci ilin ilk iki ayı ərzində Gürcüstanın Azərbaycanla mal dövriyyəsi 146,04 milyon dollara çatıb. Bu isə ümumi xarici ticarət əməliyyatlarının 10,3%-ini təşkil edir.



## TÜRKİYƏNİN TALEYİNİ DƏYİŞƏCƏK REFERENDUM

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Məlum olduğu kimi bu il aprelin 16-da Türkiyə Respublikasında dövlət idarəetmə formasında dəyişikliyi nəzərdə tutan ümumxalq səsverməsi keçiriləcəkdir. Türk vətəndaşları respublika idarəetməsinin parlament və ya prezident üsuli-idarəsi arasında seçim edəcəklər. Ərdoğan iqtidara gəldiyi zamandan bu mövzu həmişə aktuallığını qorumuşdur. Konstitusiyaya dəyişikilik layihəsi daxili və xarici faktorlardan asılı olaraq parlament dəstəyi almadığı üçün hər dəfə təxirə düşmüşdür. Lakin, keçən il Türkiyədə dövlət çevrilişinə cəhddən sonra məsələ yenidən gündəmə gəlmiş və ölkədə güclü prezidentlik insitutunun təsis edilməsi ideyası Məclisdən dəstək almışdır. Hal-hazırda referendum Türkiyə ictimayyətinin müzakirə etdiyi daxili gündəm mövzusu olduğu halda, xarici dairələr də adıgedən məsələ ilə bağlı baş sındırmaqdadırlar. Son dövrlərdə Ankara üzərində kənar təzyiqlərin yoğunlaşdığını nəzərə alsaq, onların əsl əndişələrinin səbəbini anlamaq asandır.**

Dünya siyasətinin konturlarını əlində cəmləşdirmiş güc mərkəzləri, yaxud onların "əlaltıları" bütün müstəvilərdə dinamik inkişaf edən və müstəqil siyasət yürüdən Türkiyəni bu səhnədə görmək istəmirlər. Uzun illər Qərbin diqtəsi ilə oturub-duran dövrün türk iqtidarları zaman-zaman öz "orbit"indən çıxdıqda Türkiyədə təlatümlü xaoslar yaşanmış, hərbi xuntalar hakimiyyəti ələ keçirmişdir. Bu tip sindromları Türkiyə tarixində son 60 ildə parlament idarəetmə sisteminin neqativ təzahürü kimi dəyərləndirmək olar. Qeyri-sabit koalision hökümətlərdə tez-tez baş verən çatların Türkiyə iqtisadiyyatına vurduğu zərbələr ölkəni geridən geriyə salmışdır. Daxili və xarici faktorların fəllaşdığı bir dönəmdə siyasi stabilliyinin bərqərar edilməsinin ən optimal variantı güclü prezident idarəetməsindən keçir. Ona görə də Avropada antitürk təbliğatlarının artdığı və Köhnə qitənin çeşidli ölkələrində siyasi partiyaların seçki kompaniyalarını "Türkiyəyə nifrət" üzərində qurduğu bir vaxtda güclü prezidentlik institunun təsis edilməsi labüddür. Niderlanddan sonra Almaniyada da yaxınlaşan parlament seçkiləri ərəfəsində Türkiyəyə qarşı dalğaların olacağını söyləmək çətin deyil.

Kənar bir müşahidəci kimi, hansı idarəetmə sisteminin Türkiyə üçün xarakterik olduğunu dəyərləndirsək, yenə də prezident üsuli-idarəsi önə çıxardı. Çünki, geniş səlahiyyətli prezidentlik postu Ankaranın bu gün üzləşdiyi bir çox daxili və xarici problemlərin həll edilməsi üçün qəti qərarların qəbul edilməsini və çevik addımların atılmasını şərtləndirmiş olar.

Prezidentlik sisteminin Türkiyədə reallaşmaması üçün Qərb dünyası bir sıra "qabaqlayıcı" tədbirlərə əl atmaqdadır. Onlar yaxşı başa düşürlər ki, bu onların son şansıdır və yumşaq parlament sistemli Türkiyənin siyasi konyukturasında süni şəkildə yaradıla biləcək çaxnaşmaları prezident sistemində həyata keçirə bilməyəcəklər. Avropa öləkələrinin siyasi elitasında antitürk ritorikası bunu söyləməyə əsas verir. İsveçrə, Avstriya və Almaniyada prezident Ərdoğanı və türkləri aşağılayan şüarların səsləndirildiyi yürüşlərin haradan və kimlər tərəfindən təşkili edildiyi şübhələrə yer qoymur. Türkyənin siyasi sisteminin bu və ya digər formada şəkillənməsi onun sırf daxili işi, süveren hüququdur. Odur ki, Ankaranın iç işlərinə Avropanın "burnunu soxması" heç bir beynəlxalq hüquq normaları ilə bir araya sığmır. Güclü Türkiyə və xarizmatik türk lideri Qərbin vahimə dolu yuxusudur.

**Türkiyə parlamentində təmsil olunan siyasi partiyalar da sözügedən məsələ ilə bağlı fərqli mövqe sərgiləməkdədirlər. İqtidarda olan "Ədalət və inkişaf Partiyası" (AKP) və "Millətçi Hərəkat Partiyası" "bəli" tərəfdarı olduğu halda, "Pespublika Xalq Partiyası" (CHP) və "Xalqların Demokratik Partiyası" (HDP) "xeyr" çağrışındadırlar. CHP sədri Kılıçdaroğlu Atatürkdən qalmış siyasi idarəetmə düzəninin pozulmamasından yanadır. Amma, zaman dəyişdiyi kimi zamanın tələbləri də dəyişməkdədir.**

## ABŞ ƏCNƏBİLƏRƏ VİZA VERİLMƏSİ QAYDASINI SƏRTLƏŞDİRİR

ABŞ Dövlət Departamenti dünyadakı bütün səfirlik və konsulluqlarına viza almaq üçün müraciət edən şəxsləri əlavə yoxlamadan keçirmək çağrışı ilə müraciət edib.

Dövlət katibi Reks Tillersonun imzaladağı diplomatik teleqramda səfirliklərdən ABŞ-a səfər edənədək daha çox diqqətçəkən "müəyyən əhali qrupları"nın aşkarlanması üçün meyarların müəyyənləşdirilməsi məqsədilə təhlükəsizlik və kəşfiyyat üzrə işçi qruplarının yaradılması tələb olunur.

Əgər ABŞ-a getmək üçün müraciət edən adam bütün gərəkən tələblərə cavab verərsə, lakin səfirlik əməkdaşlarının müəyyənləşdirdiyi qrupa daxil olarsa, onda onun ərizəsi əlavə araşdırma tələb edə bilər, bu isə öz növbəsində ona viza verilməməsinə səbəb ola bilər.

ABŞ-ın xarici siyasət idarəsi özünün xaricdəki diplomatlarına viza üçün müraciət edən şəxslərin terror qruplaşmaları ilə əlaqələrinə şübhə yarandığı təqdirdə və ya əgər onlar İŞİD-in nəzarətində olan ərazilərdəndirlərsə onların sosial şəbəkələrdəki profillərinə diqqət yetirməyi tövsiyə edir.

## İRANLA RUSİYA ARASINDA NÜVƏ SAZİŞİ İMZALANDI



Martın 28-də Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhaninin Moskvada keçirilən görüşündə bir neçə iqtisadi saziş və memorandum imzalanıb.

İmzalanan sənədlərə iranlı və rusiyalı turistlər üçün vizasız rejimin tətbiqi, nüvə materiallarının daşınması kimi iqtisadi sazişlər daxildir.

Dövlət başçıları Suriya və Əfqanistanda baş verən terror aktlarına münasibət bildirib, Yaxın Şərqin nüvə silahından azad bölgə olması ideyasını dəstəkləyiblər.

## 20-DƏN ÇOX DÖVLƏT BAŞÇISI PEKİNDƏ TOPLAŞACAQ

May ayında Pekində keçiriləcək "Bir kəmər – bir yol" strategiyası çərçivəsində beynəlxalq əməkdaşlığa dair forumda 20-dən çox ölkənin dövlət başçısı iştirak edəcək. Bunu Çinin xarici işlər naziri Van İ Pekində keçirdiyi mətbuat konfransında deyib.

Çin XİN-in rəhbəri bildirib ki, forumda 40-dan çox beynəlxalq təşkilatın rəhbərləri, nazirlər səviyyəsində 100-ə yaxın nümayəndə iştirak edəcək. Forumda dövlət başçılarının görüşü ilə yanaşı, ticarət, maliyyə, infrastruktur və digər mövzulara dair müzakirələr təşkil ediləcək.

Qeyd edək ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Davosda Dünya İqtisadi Forumunda çıxışı zamanı ilk dəfə "Bir kəmər – bir yol" forumu barədə açıqlama vermişdi. Çin "Bir kəmər – bir yol" adlı yeni iqtisadi inkişaf strategiyasını 2013-cü ildə elan edib. Avrasiya ölkələri, o cümlədən qədim İpək Yolu üzərində yerləşən dövlətlər arasında qarşılıqlı əlaqələrin inkişafına və ticarət-iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlmiş bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: "İpək Yolu İqtisadi Kəməri" və Dəniz İpək Yolu. Söhbət malların güzəştli şərtlərlə Şərqdən Qərbə birbaşa göndərilməsi üçün ticarət dəhlizi yaradılmasından gedir.

Xatırladaq ki, Azərbaycan və Gürcüstan da bu layihələrin gerçəkləşdirilməsində maraqlı tərəf kimi çıxış edir.

## İNGİLTƏRƏNİN AVROPA İTTİFAQINDAN ÇIXMASI 58 MİLYARD AVROYA BAŞA GƏLƏ BİLƏR



Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin bəyanatına görə, Böyük Britaniyanın Avropa İttifaqından çıxması ona təqribən 58 milyard avroya başa gələ bilər.

Yunker vurğulayıb: "Biz Böyük Britaniyanın hansı öhdəliklər götürdüyünü dəqiq hesabladıqdan sonra Britaniya bu hesabı ödəməlidir".

Onun sözlərinə görə, bu məbləğə Böyük Britaniyanın maliyyələşdirməyə razılıq verdiyi layihələrin dəyəri, habelə Aİ-da işləyən vəzifəli şəxslərin pensiyaları daxildir.

Avropa Komissiyasının rəhbəri bildirib: "Bu nə cəzadır, nə də sanksiya, lakin Böyük Britaniya bilməlidir ki, öhdəliklər mütləq yerinə yetirilməlidir".

O, Böyük Britaniyanın Aİ-nin tərkibindən çıxmasını məğlubiyyət və faciə adlandırıb.

Yunker əlavə edib: "Biz dostluq və ədalət şəraitində danışıqlar aparırıq".

## ŞİMALİ KOREYA QİTƏLƏRARASI BALLİSTİK RAKET SƏNAYESİNİ GÜCLƏNDİRİR

Martın 24-də Şimali Koreya qitələrarası ballistik raketin mühərrikini sınaqdan keçirib.

Bu barədə ABŞ ordusundakı mənbələr xəbər verib.

Məlumata görə, bu, son bir neçə həftə ərzində keçirilən sayca üçüncü sınaqdır. Martın 19-da rəsmi Pxenyan "Tonçhan-Ri" raket bazasında yeni nəsil raket mühərrikini sınaqdan keçirdiyi bəyan edib. Bundan sonra KXDR lideri Kim Çen İn bildirib ki, keçirilən uğurlu sınaqlar ölkənin raket sənayesinin yeni mərhələyə keçdiyini təmin edib. Cənubi Koreya hərbçilərinin məlumatına görə, martın 22-də keçirilən raket sınağı uğursuz nəticələnib.

## GÜRCÜSTANDA YENİ HÖKUMƏT ŞƏHƏRCİYİ SALINACAQ

Tbilisinin Ortaçala rayonunda əməli olaraq bütün nazirliklərin yerləşəcəyi hökumət şəhərciyinin tikintisinə başlanılacaq. Bu barədə martın 23-də hökumətin iclasında Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili məlumat verib.

Baş Nazirin sözlərinə görə, şəhərciyin tikintisi üçün kifayət qədər böyük ərazi ayrılıb.

Kvirikaşvili deyib: "İdarəetmə islahatları çərçivəsində artıq Ortaçalada vahid xidmət ofisinin yaradılması layihəsinə başlanılıb. Xidmətin keyfiyyətini yüksəltmək məqsədilə biz hökumət şəhərciyinin tikilməsini qərara aldıq. Böyük ərazi ayrılıb, nazirliklər ora köçəcəklər. Bir tərəfdən, şəhərin mərkəzində bir çox yer ofis və mehmanxana üçün azad olacaq, digər tərəfdən, inşaat sektoru həvəsləndiriləcək. Əksər nazirliklərin yerləşəcəyi böyük sahənin tikintisi planlaşdırılır. Demək olar ki, nazirliklərin hamısı Ortaçalaya köçəcək, bu da hüquqi və fiziki şəxslərə xidmətin yeni mərhələsinə keçməyə imkan verəcək. Bu, mühüm layihədir, mən onun başlanmasını alqışlayıram".

## GÜRCÜSTANDA KƏNDİN İNKİŞAF STRATEGİYASININ TƏQDİMATI OLUB

Gürcüstan hökumətinin başçısı Georgi Kvirikaşvili martın 16-da 2017-2020-ci illərdə kəndin inkişaf strategiyasının təqdimatını keçirib. Baş nazir hökumət üçün insan faktorunun qiymətli və əsas olduğunu vurğulayıb.

Kvirikaşvili bildirib: "İstehsalın, biznesin və ya onun başlanmasının inkişafı üçün dövlət tərəfindən yaradılan layihələrin əksəriyyəti demək olar ki, nadirdir. "Gürcüstanda istehsal et", güzəştli kreditlər, kiçik biznesə yardım layihəsi, "Startap Gürcüstan" və bir çox başqaları elə nemətdir ki, hər bir kənd sakini üçün əlçatan olmalıdır. Kənd, şəhər, bütün ölkə sakinləri tezliklə, bir neçə gündən sonra vizasız hərəkət etmək xoşbəxtliyindən istifadə edə biləcəklər".

## DOĞUM VƏ QEYSƏRİYYƏ ƏMƏLİYYATLATLARININ MALİYYƏLƏŞDİRİLMƏSİ BÜTÜN ƏHALİ ÜÇÜN EYNİ OLACAQ

Doğum və qeysəriyyə əməliyyatının maliyyələşdirilməsi istisnasız olaraq bütün əhali təbəqələri üçün varlı, orta və ya kasıb olmalarından asılı olmayaraq eyni olacaq. Bu barədə səhiyyə naziri David Sergeenko məlumat verib. O, ümumi səhiyyə sahəsində gözlənilən dəyişikliklərə də aydınlıq gətirib..

Nazir qeyd edib ki, ümumi səhiyyə proqramı fərqli paketlər şəklində fəaliyyət göstərəcək.

Birinci kateqoriyaya 0 yaşdan 5 yaşadək uşaqlar, tələbələr, təqaüdçülər, məhdud imkanlı şəxslər, sosial müdafiəsi olmayanlar daxildir.İkinci kateqoriyaya illik gəliri 40 000 laridən çox olanlar daxildir. Üçüncü kateqoriyaya orta gəlirli vətəndaşlar aiddir, onların aylıq gəliri 900 laridən artıq deyil. Bu da onların illik gəlirlərinin 40 000 larini aşmadığını göstərir. Dördüncü kateqoriya reytinq balı 70 000-dən 100 000-dək olan vətəndaşları əhatə edir. Beşinci kateqoriyaya 6-18 yaşlı şəxslər daxildir Altıncı kateqoriyaya gəliri aşağı və qeyri-müntəzəm olan və aylıq gəlirləri 900 larini aşmayan vətəndaşlar aiddirlər.

## TBİLİSİDƏ DOĞUŞLA EYNİ VAXTDA NADİR KARDİOLOJİ ƏMƏLİYYAT KEÇİRİLİB



Tbilisidə hamiləliyin səkkizinci ayında olan qadının ürəyində nadir və mürəkkəb cərrahi əməliyyat keçirilib.

Qadın oksigen çatışmazlığı və ürək nahiyyəsində ağrıların olması şikayətilə həkimə müraciət edib. Həkimlər ona aortanın anevrizmi diaqnozu qoyublar.

Qısa müddətdən sonra ginekoloq-mama həkimlərdən və kardiocərrahlardan ibarət həkim komandası "Xelsikori" Gürcüstan-İsrail kardiologiya və anginologiya mərkəzində təcili əməliyyata başlayıb.

Tibb mərkəzinin məlumatında bildirilir: "Bu, Gürcüstanda ilkdir, gürcü tibb tarixində nadir hadisədir! "Quduşauri" klinikasının ginekoloq-mama həkimləri qeysəriyyə kəsiyi əməliyyatını operativ surətdə və uğurla başa çatdıraraq, qısa vaxt ərzində uşağı ana bətnindən çıxarmışlar, bundan sonra işi "Xeliskori"nin kardiocərrahları davam etdirmişlər. Pasiyent qadının üzərində 11 saat davam edən mürəkkəb kardioloji əməliyyat həyata keçirilib".

# TƏNQİDİ QƏBUL ETMƏK BACARIĞI

**Son zamanlar sosial aləmdə intensiv forma alan, bir çox hallarda isə insanları bir-birinə düşürən və bu dəfəki yazıma mövzu olan fenomen "tənqid"dir. Bu dəfə paylaşmaq istədiyim məsələ konkret bir mövzunu tənqid etmək deyil, məhz hər kəs tərəfindən istənilən mövzuya bildirilən tənqdin mahiyyəti, hər kəsin asanlıqla tənqid etməsi üçün onun sadə olmaması və tənqidçinin haqlı olduğu mövzularda onu qəbul etməyin faciə, süqut, düşüş demək olmadığını bildirməkdir.**

İlk baxışda sadə görünsə belə, nəzərə alınmalıdır ki, tənqid söz cəfəngiyyatının əksinə, nəticəsi müəyyən insanın, yaxud toplumun hər hansı mövzuya münasibətinin dəyişməsinə gətirib çıxardan qavramdır.

Mövzunu daha dəqiq müzakirə etməzdən əvvəl, bu sözün məna və mahiyyətini dərk edək.

Tənqid hər hansı bir mövzunun biri tərəfindən izlənildiyi zaman subyektə yönələn doğru və yanlış mövqeləri, fikirləri və mənbələri işığa çıxartmaq deməkdir. O, mövzu sahibini, nümayiş etdirdiyi fikirdən ötrü günahlandırmağı və ya alçaltmağı nəzərdə tutmur. Əksinə ən uyğün şəkildə mövzu sahibinə yeni və daha parlaq fikir aşılamış olur.

Gündəlik həyatımızda sıx rast gəldiyimiz tənqidə bənzər halları tənqidlə eyni tutmaq olmaz. Çünki tənqid yalnız dolğun, möhkəm arqumentlərə, düzgün və etibarlı mənbələrə əsaslanır. O, obyektiv olmağı, geniş araşdırma aparmağı tələb edir.

Tənqid edərkən, fikir sahibini nə qədər aşağılamamız deyil, mövzunu nə qədər ciddi saymamız və ona özümüzdən bir şey qatmamız önəmlidir.

Zənnimcə tənqidə bir sənətdir desəm, malik olduğundan daha artıq məna və anlam yükləmiş olmaram. Çünki tənqid elə bir qabiliyyətdir ki, istifadə edildiyi zaman standart və meyarlara, obyektinin mənəviyyat və dəyərlərinə uyğun sərhədi qorumalı və ondan kənara çıxmamalıdır. O, mövzunun subyektindən fərdi problemlərin kənar edildiyi zaman obyektivdir.

Düşünürəm ki, tənqid etməyin qabiliyyət olması ilə yanaşı, onu qəbul etməyin özü də hünər və qabiliyyət tələb edir.

Əlbəttə ki, bu tənqidin şəklindən asılıdır. Peşəkar tənqidçi işini elə ustalıqla etməlidir ki, qarşısındakı özündə heç bir şübhə yeri qoymadan, əminliklə fikrini dəyişib, təslim ola bilsin.

Düzgün tənqid mövzunun sahibinə və onun oxucu və ya dinləyicilərinə faydalı ola bilən dir. O, mövzunu daha anlaşılan etməklə yanaşı, diqqəti mövzunun daha önəmli hissələrinə toplayır.

Tənqidi nəticəsinə görə uğurlu və ya uğursuz olmaqla iki yerə bölmək istəyirəm.

Düşünürəm ki, uğurlu tənqidin nəticəsi digərlərinin həyatında və ya həyat tərzlərində, o cümlədən mövzuya münasibətlərində böyük dəyişiklik yaratmasıdır.

Uğursuz tənqid isə adətən mövzu sahibi ilə müxtəlif şəxsi problemlərin olması, empatiya qabiliyyətinin olmaması, və buna bənzər digər səbəblərin məhsuludur. Tənqidin bu nəticəsi uğursuz belə olsa, əsər sahibini əsər üzərində müəyyən məqamlar barədə bir daha düşünməyə vadar edir və öz fikri üzərində daha əminliklə dayanmasında bir növ vasitəçi rolunu oynamış olur.

Bəli, tənqidin bir çox hallarda nəticə ver-



məməsinin səbəbi tənqidçinin yaradıcı baxış bucağından baxa bilməməsi, yəni empatiya problemidir. Müxtəlif rəngarəng mövzular var ki, baxış bucağından asılı olaraq həllər çoxluğuna müxtəlif elementlər uyğun gələ bilir. Buna görə tənqid edən zaman mövzuya sahibinin gözü və baxış bucağı ilə baxa bilmək şərtdir.

Ancaq düşünürəm ki, tənqid uğurlu olduğu zaman belə nə oxucu və ya dinləyiciyə, nə də mövzu sahibinə zərər yetirməməlidir. Qautama Budda demişdir: Təriflərmək və ya tənqid etmək müdrik adamın tarazlığını poza bilməz.

Son zamanlar adətən qəzet, jurnal və televiziyada, o cümlədən sosial şəbəkələrdə böyük bir kütlə dinləyicilərinin və ya oxucularının maraq dairələrini əhatə etmək və mövzunu daha cəzbedici göstərmək üçün bir qayda olaraq tənqid edir. Mövzularda tənqidə yol verilməsi onu oxucu, yaxud dinləyicilər üçün daha oxunaqlı və ya dinləməli formaya salır.

Zənnimcə, həlli yollarına diqqətli yanaşılmamış və nəticəsi bir yerə varmayan mövzular tənqidə hazır olan mövzulardır. Mövzunu işləyərkən tənqiddən qorxmaq və onu səhvsiz görmək istəyi mövzunu daha çətin anlaşılan formaya sala bilir. Mövzunun əsas mahiyyəti araşdırılmış mənbənin düzgünlüyü və sahibinin fikir və münasibətidir.

Düşünürəm ki, istənilən əsəri tənqid edərkən mövzunu bayağılaşdırıb, bir neçə sözlə hökm vermək işini sürətli görən, peşəkar tənqdiçilik anlamına gəlmir. Peşəkar tənqidçi tənqid etməyi bilməklə yanaşı, əməyə hörmət etməyi bacaran geniş düşüncə sahibidir.

**Tənqid zamanı oxucu və ya dinləyici ikinci bir fikirlə tanış olur. Özlüyündə bunu müqaisə edir və mövqeyini seçir. Bu baxımdan tənqidin bir çox hallarda mövcud olması vacibdir. Bunları da nəzərə alarsaq, tənqidi yaradıcılıq düşməni yox, onun qüsursuz olmasını təmin edən vasitə kimi görə bilərik.**

**Anaxanım VÜQAR**

## GÜRCÜSTAN ƏN XOŞBƏXT ÖLKƏLƏR REYTİNQİNDƏ GÖSTƏRİCİSİNİ YAXŞILAŞDIRIB

World Happiness Report Xoşbəxtlik reytinqində Gürcüstan iki Afrika ölkəsi – Konqo və Konqo Demokratik Respublikası arasında mövqe tutub. Kolumbiya Universitetinin Yer İnstitutunun tərtib etdiyi World Happiness Report 2016 reytinqində Gürcüstan dünyanın 155 ölkəsi arasında 125-ci yeri tutub. Bununla belə, Gürcüstan 2015-ci illə müqayisədə mövqeyini bir pillə yaxşılaşdırıb.

Reytinqdə Gürcüstanın yaxın qonşuları Rusiya 49-cu, Türkiyə 69-cu, Azərbaycan 85-ci, Ermənistan isə 121-ci olub.

Ən xoşbəxt ölkələr reytinqinə Norveç başçılıq edir. İlk onluğa həmçinin Danimarka, İslandiya, İsveçrə, Finlandiya, Niderland, Kanada, Yeni Zelandiya, Avstraliya və İsveç daxil olub.

Toqo, Ruanda, Suriya, Tanzaniya, Burundi və Mərkəzi Afrika Respublikası reytinqin ən bədbəxt ölkələri hesab edilib.

## İNSANI UCALDAN DUYĞU – HƏYA

**Yetkin bir insanın sahib olduğu gözəl xüsusiyyətlərdən biri də, heç şübhəsiz ki, utanma duyğusudur. Söz olaraq "utanma" şəklində dilimizdə yer alan həyanı alimlər belə tərif ediblər:**

Həya – insanı yaxşılığa aparan və pisliyin edilməsinə mane olan mənəvi bir qüvvədir.

Buna görə də həya sahibi olan kimsə, ailəsinə və bütün insanlığa faydalı olan hər şeyi etməkdən geri çəkilməz. Bundan sonra o, getdiyi yolda irəliləyərkən qarşısına çıxan hər cür əxlaqsızlıq və pisliklər ona mane olmaz. Çünki onun sahib olduğu utanma duyğusu, özü ilə pislik arasında bir sədd çəkmişdir. Bu səbəblə də həyalı insan onu tənqidə götürəcək olan pislikləri və əxlaqsızlıqları işləməkdən çəkinər. Belə davranan bir insan haqqında da "gözəl əxlaqlıdır" şəklində bir hökm vermək məncə səhv olmaz.

Şəhvəti arzularına sahib olan, özünə qarşı pislik edənə yaxşılıqla cavab verən, adamı rüsvay edən içki, zina və qumar kimi pisliklərdən çəkindirən həya, sahibinə qazancdan başqa nə verə bilər ki? İnsana haramı gördüyü zaman gözlərini bağlamasını əmr edən, bir yığıncaqda lazımsız danışıqlara və faydasız mübahisələrə mane olan həya, insana ətrafındakıların təqdirini və sevgisini qazandırar. Elə bütün insanların da istədiyi bu deyilmi?

Bir gerçəyi qəti olaraq bilməliyik ki, əgər insanlar arasında əzilmək, kiçik düşmək və lağ mövzusu olmaq istəmiriksə, uca dinimizin qoyduğu prinsiplərə möhkəm bir şəkildə bağlanmağımız lazımdır. Ancaq o zaman biz möhkəm bir ictimai mövqeyə və bundan da əhəmiyyətli olan Allah rizasına və məmnuniyyətinə qovuşmuş olarıq. Onu da bilməliyik ki, eqoist arzuların arxasınca qaçan, Allah kəlamı dinləməyən, Peyğəmbər sözünə əməl etməyən insanlar nə dünyada sayılıb sevilərlər, nə də axirətdə sonu olmayan bir xüsrana uğramaqdan özlərini qurtara bilərlər.

Bu vəziyyətdə biz müsəlmanların üzərinə düşən birinci vəzifə həya sahibi olmaqdır. Ancaq bunu edərkən də hər mövzuda olduğu kimi, bu məsələ üzərində də diqqətlə durmamız və həyanın nə olduğunu əskiksiz olaraq bilməmiz lazımdır. Bu fani həyatda qarşılaşdığımız hər çətinliyin öhdəsindən gəlməkdə, hər problemi həll etməkdə bizə qəti və çaşılmaz prinsiplər göstərən sevimli peyğəmbərimiz hz. Məhəmməd (s.ə.s.) bu mövzuda yolumuzu belə aydınlandırmışdır:

"Abdullah İbni Məsud izah edir: Bir gün Peyğəmbərimiz (s.ə.s.) bizə dedi ki:

"Uca Allahdan lazımlı şəkildə həya edin."

Peyğəmbərimizin bu sözlərinə qarşılıq biz də belə cavab verdik:

"Biz Allahdan utanırıq. Ona həmdlər olsun."

Bunun üzərinə Peyğəmbərimiz (s.ə.s) belə dedi:

"Söyləmək istədiyim həya, sizin anladığınız mənadakı həya deyil. Gerçək mənasıyla Uca Allahdan həya etmək: Başını və başında olan göz, qulaq və dil kimi orqanlarını, qarın boşluğunda olan ürək, mədə və bənzəri üzvlərini Allahın əmrlərinə zidd hərəkətlərdən qorumaqdır. Bunun yanında ölümü və öldükdən sonra qəbirdə çürüyəcəyini unutmamaqdır. Axirəti istəyən adam, dünyanın dəbdəbəli gözəlliklərinə könül bağlamaz və axirət işlərinə dünya işlərindən daha çox əhəmiyyət verər. Ancaq bunları edən kimsə gerçək mənada Allahdan həya etmiş olar."

Hədisi Şərif üzərində bir az dərindən düşünək. Sevimli Peyğəmbərimiz bizə: Ey insanlar Allah (c.c) bizi yoxdan yaratdı. Məxluqatın içində bizə ən gözəl surəti verdi. Bu ölümlü həyatı rahat və hüzur içində keçirmək üçün sonsuz xəzinəsindən bizə saysız nemətlər bağışladı. Hesaba, kitaba gəlməyən sərhədsiz varlıqlar içindən bizi seçib ağıl, iradə və düşüncə qabiliyyəti verdi. Bütün bu sonsuz lütf və ikramlarına qarşılıq bizdən yalnız əmr və qadağanlarına uyğun gəlməmizi istədi. Bu qədər nemətlər içində üzərkən Uca Allaha qarşı gəlməkdən, Onun əmrlərini tapdalamaqdan, qısacası Ona qarşı nankorluq etməkdən utanarıq. Dünyada ən kiçik bir yaxşılığını gördüyümüz bir insana qarşı hörmət və sevgi hisslərinizi aşkar etməkdən çəkinmirsinizsə, sizə həyatı verməklə ən böyük yaxşılıq edən Uca Allahı tanımamaq və buyruqlarını tapdalamaq kimi bir həyasızlığı necə edə bilirsiniz? Heçmi utanmırsınız? Bu davranışlarınız insanlığa və müsəlmanlığa yaraşarmı? – demək istəyir.

Ürəyində imanı, başında ağlı olan hər kəs bu həqiqət qarşısında belə düşünməlidir: madam ki, məni yaradan, böyüdən, mənə ağıl, iradə və hər cür neməti verən Uca bir yaradıcı vardır və mənə bu qədər neməti bəxş etmişdir, elə isə bunlara qarşılıq əlbəttə ki, məndən bəzi tapşırıqlar istəyəcək. Bir müsəlman olaraq bunları yerinə yetirməməkdən və Ona qarşı nankorluq etməkdən utanaram.

**Beləcə adam gerçək mənada həya sahibi olar. Yoxsa ata-ananın, komandirlərin və ya xaricilərin qarşısına çıxdığı zaman üzün qızarması, əllərin titrəməsi və dodaqların kəkələməsi utanmanın əlamətləri deyil. Uca Allahın, sözlə izah olunmayacaq qədər qorxunc olan əzabını düşünərək şəhvani arzulara qarşı çıxan, gözlərini harama baxmaqdan qoruyan, zehnində və könlündə müsəlmanların zərərinə tək düşüncə saxlamayan kimsə gerçək mənasıyla həya sahibidir. Allahdan utanmasını bilən bu cür üstün insanlardan ətraflarındakılara heç bir pislik gəlməz. Onlar hər kəsin sevdiyi, saydığı və cəmiyyətin nümunə qəbul etdiyi kəslərdir. Allah cümləmizi belə qullarından etsin... Amin...**

Hacı BƏKİROĞLU

## MARNEULİ KİTABXANASININ AÇILIŞI OLDU




Martın 21-də Marneulidə müasir standartlara cavab verən ictimai kitabxananın təntənəli şəkildə açılışı olub.

Kitabxananın qırmızı lentinin kəsilməsi prosesində Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili, bölgə qubernatoru Paata Xizanaşvili və Marneuli Bələdiyyəsinin icra başçısı Merab Topçişvili iştirak ediblər.

Mərasimdə Gürcüstan Parlamenti Milli Kitabxanasının direktoru Giorgi Qeqelidze, Polşa nümayəndə heyəti və digər dəvətli şəxslər iştirak ediblər.

Prezident kitabxananın daxili avadanlıqlarını nəzərdən keçirərək, xatirə kitabına ilk ürək sözlərini yazıb.

Qeyd etmək lazımdır ki, Marneuli şəhərində indiyədək kitabxana binası mövcud deyildi. Buna görə də vətəndaşların ehtiyaclarını nəzərə alaraq və icra başçısının təşəbbüsü ilə 2014 cü ilin oktyabrında, Marneuli şəhərinin mərkəzi küçəsində, Rustaveli 71 ünvanında müasir standartlara cavab verən kitabxana binasının inşaasına başlandı.

Bina ikimərtəbəlidir, dəmir-beton çərçivədə və düzbucaqlı və trapesiya formalıdır. Bina açıq kitab formasında inşa olunub. Kitabxana Marneulidə kitaba sevginin artırılması, gənclər arasında təhsilə marağın yüksəldilməsi məqsədinə xidmət edir.

Yeni açılan kitabxanada vətəndaşların poeziya gecələri, konfranslar, treninqlər və işgüzar görüşlər təşkil etmək imkanları olacaq.

Kitabxananın fəaliyyəti Marneulidə müxtəlif millətlərin nümayəndələrinin inteqrasiyasına, mədəni əlaqələrin möhkəmləndirilməsinə və tolerant münasibətlərin daha da dərinləşməsinə dəstək olacaq.

Binada kitabxana, muzey, mədəni abidələr və turizm sahələri yerləşir.

Bina müasir avadanlıq-mebellə təmin olunub.

Layihə çərçivəsində sözügedən əraziyə yaşıl ot, kol və ağac, eləcə də digər bitkilər əkilib. Kitabxananın park ərazisində kiçik həcmli birmərtəbəli kafe inşa olunub. Kafedə spirtsiz içkilər və hazır qida məhsullarının qəbulu mümkün olacaq.

Kitabxananın inşası üçün yerli büdcədən 333 000 lari xərclənib. Kitabxananın avadanlıla, lazımi dekorasiyalarla təmin olunmasına və həyətində park salınmasına 336 048 lari xərclənib.

Turac İBRAHİMOVA

## GÜRCÜSTAN DEMOQRAFİK FƏLAKƏT HƏDDİNƏ GƏLİB ÇIXA BİLƏR

"Azad İnformasiyanın İnkişafı İnstitutu"nun (İDFİ) araşdırmasına görə, əgər Gürcüstanda demoqrafik durum yaxşılaşmasa, onda BMT-nin əhali üzrə fondunun 2050-ci ildə ölkə əhalisinin sayının 2 milyon 985 minə yaxınlaşması ilə bağlı verdiyi proqnoz gerçəkliyə çevrilə bilər.

İDFİ-nin məlumatında bildirilir ki, 2002-ci ildə keçirilmiş siyahıya almanın nəticələri ilə müqayisədə 2014-cü il siyahıya almasına görə əhalinin sayı 4 371 535 nəfərdən 3 713 804 nəfərə düşərək, 15% azalma qeydə alınıb.

Bununla belə qeyd olunur ki, son illər Gürcüstanda doğum səviyyəsində mənfi meylin müşahidə olunmasına baxmayaraq, ekspertlər demoqrafik durumun daha da pisləşdiyini proqnozlaşdırırlar.

Ekspertlər bunu 2017-2018-ci illərdə 90-cı illərdə doğulanların nikah yaşına çatması ilə əlaqələndirirlər, həmin illərdə isə Gürcüstanda doğumun səviyyəsi çox aşağı olmuşdu.

Araşdırıcılar vəziyyətin yaxşılaşdırılması məqsədilə Gürcüstan hökumətinə məqsədli dövlət proqramı və demoqrafik problemləriin həlli üzrə fəaliyyət planı hazırlamağı tövsiyə edirlər.

Çoxuşaqlı ailələrin dəstəklənməsi məqsədilə təsirli dövlət siyasətinin fəaliyyətinin gərəkliliyi vurğulanır. Gürcüstanda uşaqların və onların ailələrinin rifahı üzrə BMT-nin Uşaq Fondunun keçirdiyi tədqiqata görə, uşaqların sayı ilə birgə ailələrdə yoxsulluq səviyyəsinin göstəriciləri kəskin şəkildə pisləşir.

Araşdırmada 31 mart 2014-cü ildə Gürcüstan hökuməti tərəfindən demoqrafik durumun yaxşılaşdırılmasına dair xüsusi proqramın fəaliyyəti üzrə qərarın qəbul edilməsinin vacibliyi qeyd olunur. Lakin Avropa İttifaqı ölkələrində fəaliyyət göstərən müvafiq proqramların təhlilindən sonra mütəxəssislər Gürcüstanda doğum səviyyəsinə və çoxuşaqlı ailələrə yardım üzrə mövcud təcrübənin yaxşılaşdırılmasının vacibliyi qənaətinə gəliblər.

Xatırladaq ki, İDFİ 2009-cu ildə Gürcüstanda yaradılmış qeyri-hökumət təşkilatıdır.

## GÜRCÜSTANDA QADINLARIN VƏ KİŞİLƏRİN ORTA AYLIQ ƏMƏKHAQQI NƏ QƏDƏRDİR?

Milli statistika xidmətinin məlumatında 2016-cı ilin dördüncü kvartalında Gürcüstanda orta aylıq əməkhaqqının 85 lari artdığı bildirilib.

Keçən ilin son üç ayı ərzində Gürcüstanda orta aylıq əməkhaqqı 1065 lari təşkil edib.

İşləyən qadınların aylıq qazancları orta hesabla 795 lari, kişilərin qazancı isə 1306 lari olub.

Kənd təsərrüfatında çalışan qadınlar ayda 559, kişilər 691 lari qazanıblar. Emal sənayesində çalışan qadınlar 623 lari, kişilərsə 1062 lari aylıq gəlirə malik olublar. İnşaat sektorunda qadınların gəlirləri 1122 lari, kişilərinki isə 1242 lari təşkil edib. Parakəndə və topdansatış ticarətlə, eləcə də nəqliyyat vasitələri, məişət predmetlərinin təmiri ilə məşğul olan qadınlar 701 lari, kişilər 1221 lari qazana biliblər. Mehmanxana və restoranda çalışan qadınlar 742 lari, kişilərsə 1141 lari qazanıblar. Nəqliyyat və rabitə sektorunda göstərici müvafiq olaraq 1161 lari, 1409 lari təşkil edib.

Dövlət idarəçiliyində də qadınların qazancı kişilərə nisbətən az olub. Ayda 1313 lari qazanan kişilərlə müqayisədə qadınlar 1024 lari qazanıblar. Təhsil sahəsində qadınlar 564 lari, kişilərsə 680 lari maaş alıblar. Səhiyyə və sosial yardım sektorunda məşğul olan qadınların aylıq gəliri 873 lari, kişilərin aylıq maaşı isə 1293 lari olub. Kommunal, sosial və fərdi xidmət sahəsində qadınlar ayda 769 lari qazanıblarsa, kişilər 974 lari qazanca sahib olublar.

# ƏYRİQAR QALXANI (silentium)

***Süsən-Sünbül tərəflərdə bunu az qala hamı bilir: qədim müharibələrin başlıca silahları qılınc və qalxan olub. Az qala hamı – əlbəttə, Süsən-Sünbül tərəflərdə – bunu da bilir ki, qalxan – zərbələrdən qorunmaq üçün əldə tutulan dairə şəkilli sipərə deyilib.***

Üstəlik, indi qalxan elə müdafiə simvoluna çevrilib ki, hətta dünən başlayan "banan" müharibəsində fikrində ancaq hava bombardmanı dolaşan general da səhər saatlarında keçirəcəkləri hücum əməliyyatının adını "Qırmızı üfüq qalxanı" qoyur. Dövlətlərin hərbi nazirlərinin adları da "müdafiə naziri" şəklində gedir. Müxtəsəri, hamı "Müdafiə fərmanı"ndan danışır, qılınc qaldırmağından söz salmır, elə "mənim qalxanım" deyir. Belə çıxır ki, hamı sülhsevərdir, hamı ancaq və ancaq müdafiə olunur, bir kimsənin də hücum etmək niyyəti yoxdur. Mirzə Qələmin bostanına atılan daşlar bir yana, Hələb boyda şəmssipər şəhər də sən demə... "öz-özünə" xatirşikəstə xarabalığa çevrilibmiş...

Amma ucqar sözümün toz-tozanaq, az-az da arazbarı təkrarı bunda deyil...

..."İbrahimxəlilin ucqar biçilən boyu"nu uzaqlarda yaxşı görən Nəriman Əbdülrəhmanlının iffəti ilə tanış olduğum unudulmaz Tofiq Abdin bir dəfə qalxdığımız pilləkəndə qəfil ayaq saxlayıb məndən soruşdu:

– Oralarda necə yaşayırsan?

Onda biz tərəflərdən Sınıq körpünün o biri üzünə kəmhövsələ köç başlamışdı. Hazırda "xalq qəhrəmanı" kimi peyda olanların bəziləri onda başlarını soxmağa qulpu qırıq küp axtarırdılar...

Cavab verdim ki, Tofiq bəy, oralarda Əyriqar qalxanı ilə yaşayıram.

...Siz tərəflərdə də məlum olduğutək, hər mahiyyətin bir neçə təzahürü mümkündür; təzahürlər təsadüf ola bilir, ən başlıcası, biləcəksən ki, bütün hallarda onların mahiyyəti zərurətdir, yəni sən özün də zərurətsən, onda var olmağın sənə daxili rahatlıq, səliqə-sahman gətirir. O vaxt sən qalxanı ona görə qaldırmırsan ki, birdən işdi-şayəd, səni ürəyindən vura bilərlər, böyrəyindən, başından vura bilərlər. Onda sən qalxanı qaldırırsan ki, batinini qoruyasan! Çünki batinə, bəsirətə göz dikən – özü də nə qədər desən – batil var!

Bir də ömrümüzün əslində aldığımız nəfəslərin sayı olduğu səbəbindən ədəbiyyat – ən əmanətdar Əyriqar qalxanım olaraq – mənə kəsilhakəsil də yeni nəfəs verlb. Təhqirdən, bikarçılıqdan, bihallıqdan, qüllabidən-qurumsaqdan qoruyub, qubara-qumrulara-durnalara, qübbeyi-minaya yaxın tutub. Daimi ədəbi, nəzakəti də bir ayrı!.. Anladıb ki, ey bir "Ol!" buyuruğu-əmri ilə yaranan, "olmaq", "olum" bir an da olsun bitmir, var olmaq, zəruri olmaq halı mütəmadidir!

Ədəbiyyat – ədəbi-bədii qalxanım mənə öz füsunkar sükutu, səbri-təmkini ilə müdrik yaşamağı öyrədib, ədəbi-bədii həyatın vacibliyini vurğulayıb, məni Panurq sürüsündən həmişə uzaq tutub! Unudulmaz Anna Axmatova demiş:

Я научилась просто, мудро жить…

(Sadəcə olaraq, müdrik yaşamağı öyrəndim...)

...Bunu da etiraf etmək lazımdır ki, burası da var: dünyada o qədər "müdriklik məktəbi" bitirənlər olub ki, qətiyyən müdriklik qazanmayıblar, əksinə, onların bəziləri barəsində "Eşşəklər haqqında komediya" (Plavtın əsərinin adıdır, "Qızıl eşşək" (Apuleyin əsərinin adıdır) kimi əsərlər yazılıb.

Ədəbiyyatınkı möcüzə müdriklikdir. Hətta haradasa unudulmaz Borxesə yarıalmatək oxşar, az qala idarə olunan – bəlkə də Yaradana xatir – şirin və gözəl yuxudur.

P.S.

Azərbaycan rəssamı Məhəmməd Möminin "Bədii qalxan" adlı məşhur rəsm əsəri var. Moskvada Silah palatasında (bu da sənə bir peymaneyi-qəm paradoks) saxlanılır. İndi oxuyanda ki, Rusiya, ABŞ, Çin kimi böyük dövlətlər öz hərbi hava-kosmik müdafiə konsepsiyalarını yeniləyirlər, yeni-yeni "nüvə qalxanı" yaradırlar, açığı, çox mütəəssir oluram: məgər hərəyə bir ədəbi-bədii qalxan bəs eləmirmi? Axı rusların Çexov kimi, amerikalıların Folkner kimi, çinlilərin Mo Yan kimi (sərhesab siyahını Santyaqodan Səmərqəndə qədər uzatmıram) ədəbi qalxanları var! Dekorativ olmayan qalxanları!..

**...Deyilənlərə görə, uzaq-uzaq illər bundan öncə, bəlkə də dəryalar mürəkkəb olan zamanlar qılınc kəsməyəni qələm kəsirmiş...**

İBRAHİMXƏLİL

# TƏHSİL NAZİRİ: MƏKTƏB SEVİNC MƏNBƏYİ OLMALIDIR

Gürcüstanda təhsil islahatının əsas vəzifələrindən biri məktəbləri uşaqların sevinclə getdikləri yerə çevirməkdir. Bu fikri Gürcüstanın Təhsil və Elm naziri Aleksandr Cecelava səsləndirib.

Nazir vurğulayıb: "Bizim islahata əsasən, məktəb uşaqların biliyi, həyatı və münasibətləri sevdiyi yer olmalıdır. Təhsili isə maraqlı və cəlbedici proses etmək istəyirik".

Cecelava bildirib ki, məktəblilər həddindən artıq yüklənməməlidirlər. Çünki əks halda yeddinci sinfə doğru uşaqlar artıq əldən düşmüş olurlar, buraxılış siniflərinin şagirdləri isə ümumilikdə təhsil prosesindən uzaqlaşırlar.

Məktəblərdə təhsili müasir və maraqlı etmək üçün təhsil və elm nazirliyi təhsilin keyfiyyətini yüksəltmək və məktəblilər arasında tənqidi və azad düşüncənin inkişafına yardım etmək niyyətindədir.

# FƏLSƏFƏ İLƏ ƏDƏBİYYAT

**Fəlsəfə və ədəbiyyat bir-birindən hər nə qədər fərqlənsə də, onların qovuşduğu, rastlaşdığı, görüşdüyü momentlər də çox olur. Ümumiyyətlə isə, nə əqidəsiz ədəbiyyat və nə də dilsiz fəlsəfəni düşünmək olmaz, belə çıxır ki, hər iki məfhumun xəmirinə həm fəlsəfə (əqidə) və həm də ədəbiyyat (dil) qarışıb.**

Nə Homerdən tutmuş Albert Kamyuya qədər, lap elə özümüzünkülərdən götürsək, Nizami Gəncəvidən tutmuş Mikayıl Müşfiqə qədər bütün yazar və müəlliflərin əsərlərində formalaşmış bir əqidə olduğunu desəm, nə də Platondan tutmuş İmadəddin Nəsimiyə, Nitsşeyə qədər bütün filosofların azdan-çoxdan, bəzən isə həddindən artıq çox ədəbiyyata müraciət etdiyini və ya fikirlərini gücləndirmək üçün ədəbi məqamlara baş vurduqlarını desəm, əminəm ki, deməyə sözünüz olmaz. Onların tutduğu yolu mən də salamlayıram, çünki ədəbiyyatı fəlsəfəsiz, fəlsəfəni də ədəbiyyatsız düşünə bilmirəm. Belə deyim ki, fəlsəfəni Dünya kimi ələ alsaq, ədəbiyyatı onun Günəşi saymaq olar.

Müasir fəlsəfənin tanınmış filosofu Karl Yaspers deyirdi: "fəlsəfə yolda olmaqdırsa, onun ən yaxşı yol yoldaşı məhz ədəbiyyat olacaqdır". Diqqətinizə çatdırmaq istəyirəm ki, hər ikisinin nəticədə cəmiyyət üçün bir sözü var, hər ikisinin vasitəsiylə müəlliflər cəmiyyətə müəyyən bir əqidə kökləməyə çalışır, ancaq qeyd etmək lazımdır ki, əqidə baxımından fundamental olaraq ilkin köklər fəlsəfədə atılır, ardından isə bu özünü nəinki, ədəbiyyatda, həmçinin musiqidə, rəssamlıqda, heykəltəraşlıqda, elmdə və adlarını çəkərək siyahını uzatmaq istəmədiyim bir çox sahədə göstərir. Fəlsəfədə ədəbiyyatın, ədəbiyatda isə fəlsəfənin çalarları nisbətən az olur, ancaq hər ikisini tamamilə bir-birinə calayaraq möhtəşəm əsərlər ərsəyə gətirən yazarlar da az olmayıb, buna ən yaxşı nümunə olaraq Lev Tolstoyu, Fyodor Dostoyevskini, Fridrix Nitsşeni, Albert Kamyunu və Jan-Pol Sartrı göstərmək olar.

Bir nasir kimi fəlsəfə təhsili almağı özüm üçün böyük şans hesab edirəm, çünki bizim cəmiyyətimizdə fəlsəfədən yoxsul bir ədəbiyyat görürük. Rahatlıqla və bir o qədər də əminliklə deyə bilərəm ki, tutduğum yolda yaşımın azlığına verdiyim kiçik uğurlarım tezliklə böyüməyə başlayacaq, ancaq ondan əvvəl uğurdan daha da çox arzuladığım ədəbiyyata, dilə və əqidəyə hakim kəsilmə istəyim həyata keçəcəkdir. Bu yolda əsas



deviz səbrli olmaqdır, gerisi çalışqanlığa və mütaliəyə qalıb (gənclər, mütaliəyə diqqət!), qabiliyyətin varsa gec-tez ortaya çıxacaqdır. Gələcəyə boylandığım zaman parlaq bir cəmiyyət görürəm, harada ki, ədəbiyyat böyük rol oynayır və bu rolun əsas rejissoru məhz fəlsəfədir. Axı fəlsəfədən imtina etmək üçün də fəlsəfəni dərindən bilməlisən...

**Nəticədə deməyə çox da bir şey qalmır. Məqalənin gedişatı özü sizi yekun fikrə aparır, belə ki, ədəbiyyatımızın rəng çalarları sıralarına fəlsəfənin də rəngini qata bilsək, ortaya çox gözəl rəsm çıxacağından adım qədər əminəm, çünki bu bütün cəmiyyətlərdə özünü heç şübhəsiz doğruldan bir təşəbbüsdür.**

KAMURAN

# QARDABANİ VƏ BORJOMİ MƏKTƏBLİLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLİB

"Gürcüstanda Azərbaycanlı Müəllimlər İttifaqı"nın təşəbbüsü və təşkilatçılığı ilə 18 mart 2017-ci il tarixində Borjomi və Qardabani içtimai məktəblərində təhsil alan şagirdlər arasında görüş təşkil edilib. Onu da bildirək ki, görüşün keçirilməsində məqsəd gürcü və azərbaycanlı şagirdlər arasında dostluq münasibətlərinin genişləndirilməsindən, gələn qonaqların milli adət-ənənələrimizlə tanış olmasından, eləcə də Borjomidən olan şagirdlərə Novruz bayramı barəsində ətraflı məlumat verməkdən ibarət olub. Qeyd edək ki, görüşə Paytaxt Tiflisdəki Heydər Əliyev adına parkdan başlanıldı. Burada şagirdlər bir-biriləri ilə tanış olaraq ünsiyyət qurdular.

Sonra məktəblilər M.F.Axundazdə adına Azərbaycanlıların Mədəniyyət muzeyi ilə tanış oldular. Muzeydə şagirdlər Mirzə Fətəli Axundzadənin həyat və yaradıcılığı, fəaliyyəti barəsində geniş məlumat aldılar.

Şagirdlərin ziyarət etdiyi növbəti məkan Türk dünyasının ünlü ozanı Aşıq Aslan Kosalının ev muzeyi oldu. Burada gürcü məktəbliləri ustadın kitabları, sazı, milli geyimləri, saz düzəltməkdə istifadə etdiyi alətləri, eləcə də şəxsi əşyaları ilə tanış olaraq, ustad aşığın aşıq sənətinə verdiyi töhfələrdən ətraflı məlumat aldılar. Onu da bildirək ki, ustadın ev muzeyində Aşıq Nargilə gələn qonaqlara azərbaycanlıların qədim və müqəddəs saz alətindən, eləcə də aşıqlıq sənətindən geniş məlumat verərək gözəl bir saz havası da ifa etdi.

Sonra Qardabani 3 saylı Azərbaycan məktəbində Borjomi və Qardabani rayon içtimai məktəblərindən olan şagirdlər arasında idman yarışları keçirildi.

Daha sonra isə "Gürcüstanda Azərbaycanlı Müəllimlər İttifaqı"nın ofisinə gələn qonaqlara milli yeməklərimizdən hazırlanmış şam süfrəsi açıldı.

Borjomi və Qardabani məktəbliləri Novruz bayramının simvolu olan yumurta döyüşdürdülər. Məktəblilər bayram tonqalı alovlandıraraq üzərindən tullandılar. Tonqal ətrafına toplaşan şagirdlər bir-biriləri ilə söhbət apararaq, əyləncəli bir bayram axşamı keçirdilər.

Sonda Borjomidən gəlmiş şagirdlərin hər birinə təşkilat tərəfindən hazırlanmış Novruz xonçası da hədiyyə olundu.

Qonaqlar yüksək qonaqpərvərliyə görə təşkilata dərin minnətdarlıqlarını bildirdilər və Qardabani məktəblərinin şagirdlərini Borjomiyə dəvət etdilər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

31 mart 2017-cı il
№006 (44)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TBİLBSİ AZƏRBAYCAN DRAM TEATRI QARDABANİDƏ QASTROLDA OLUB

Novruz bayramı ərafəsində, yəni martın 19-da Qardabani şəhər mədəniyyət evinə toplaşanlar Heydər Əliyev adına Tbilisi Azərbaycan Peşəkar Dram Teatrının ifasında “Sehrli papaq” tamaşasını izləyə biliblər.

Xatırladaq ki, teatr son illərdə bu tamaşaya dəfələrlə müraciət edib və tamaşaçıların rəğbətini qazanıb. Teatrın kollektivi Qardabaniyə qastrol səfərində də məhz bu tamaşa ilə çıxış etməyi daha məqsədəuyğun hesab edib.

Georgi Eristavinin “Sehrli papaq” əsərinin bundan əvvəlki quruluşunu rejissor Qoça Kapanadze versə də, bu dəfə onun səhnə həllini teatrın aktyor truppası öz üzərinə götürüb.

“Sehirli papaq” komediyasında rolları teatrın aktyorlarından Şəhla Cəfərova (qulluqçu Fərhunda”, Fazil



Bayramov (qulluqçu Kikoli), Binəli İslamoğlu (Zabit), Leyla Qasımova (Xanım) və Aida Tağıyeva (Rəqqas) canlandırıblar.

## MÜSƏLMAN YAPONLAR İLK MƏSCİDLƏRİNİ İSTİFADƏYƏ VERİBLƏR



Yaponiyanın yerli müsəlmanlar icması ilk məscidini istifadəyə verib.

Paytaxt Tokioda yeni məscidin açılışı olub. “Mədəni mübadilə İslam mərkəzi” adlı bina şəhərin Hiqaşi-Qotanda rayonunun Şiqanava Vard küçəsində yerləşir.

Mərkəzin xüsusiyyəti ondan ibarətdir ki, onu miqrantlar yox, “Yaponiya Müsəlmanlar Assosiyasiyası”ndan olan müsəlman yaponlar açıb. Assosiyasiyanın bütün Yaponiyada ümumilikdə 500 üzvü var. Onların paytaxtdakı üzvlərinin sayı təxminən 50 nəfərdir.

Mərkəzin hədəfi hər şeydən öncə islam dəyərlərini yaponlara anlaşılan dildə və mədəni formada çatdırılması, o cümlədən də yapon müsəlmanların bir icmada birləşdirilməsidir.

Qeyd edək ki, Tokiodakı müsəlman yaponların icması yarandığı vaxtdan yalnız 50 il sonra öz məscidinə sahib ola bilib. İcma 2003-cü ildə onun tikintisi üçün ianələrin toplanması üzrə beynəlxalq kampaniyaya start vermişdi. Məscidin tikintisi 2,3 milyon ABŞ dollarına başa gəlib.

## “FORBES” JURNALININ REYTİNQİNDƏ BİDZİNA İVANİŞVİLİ 376-CI OLUB

“Forbes” jurnalının versiyası üzrə dünyanın zəngin adamlarının reytinqində Gürcüstanın sabiq baş naziri və ən varlı şəxsi Bidzina İvanişvilinin sərvəti azalıb.

Keçən ilki reytinqlə müqayisədə o, 300 milyon dollar itirib, 2016-cı ildə onun sərvəti 4,8 milyard dollar təşkil edirdi, indisə 4,5 milyard dollardır. 2016-cı ildə “Forbes”in siyahısında 298-ci yeri tutan İvanişvili hazırda 367-ci pillədədir. 2015-ci ildə Bidzina İvanişvili daha zəngin idi. Həmin vaxt onun sərvəti 5,2 milyard dollar olmuşdu və reytinqdə 291-ci yeri tuturdu.

Reytinqin lideri 86 milyard dollarla əvvəlki kimi Bill Qeytsdir. 75,6 milyard sərvətə malik olan Uorren Baffet reytinqdə ikinci, 72,8 milyard dollarlıq sərvətlə Ceff Bezos isə üçüncü olub.

“Forbes”in məlumatına görə, 2016-cı illə müqayisədə 2017-ci ildə milyarderlərin sayında 13% artım baş vermiş və onların sayı 2 043-ə yüksəlmişdir. Onların ümumi sərvəti 18% artaraq 7,67 trilyon dollara çatıb.

## NİZAMİ PAŞA SARACLININ YENİ KİTABI ÇAP OLUNUB




Uğurlu ədəbi tapıntıları, poeziyamızın ən yaxşı ənənələrinə sadiqliyi ilə seçilən, üç dəfə beynəlxalq şeir müsabiqəsinin qalibi olan Nizami Paşa Saraclının yeni kitabı “Adəmdən bəriyə” adlanır. Kitaba şairin son illərdə qələmə aldığı və müxtəlif janrlarda yazdığı poetik nümunələr toplanıb. Tbilisinin “Universal” nəşriyyatında işıq üzü görmüş bu qiymətli kitabın nəşri xeyirxah insan, Gürcüstan parlamentinin deputatı Mahir Dərziyevin maddi dəstəyi sayəsində baş tutub. Kitabın rəssamı Rizvan İsmayıl, redaktoru İbrahimxəlildir.

## GÜRCÜ DİLİ ƏN QƏDİM DİLLƏRİN SİYAHISINA DAXİL EDİLİB



Britaniyanın “Culture Trip” informasiya kompaniyası “Dünyada hələ də istifadə olunan 10 qədim dil” adlı məqalə hazırlayıb.

Siyahıya qədim və canlı dil kimi gürcü, ivrit, tamil, litov, fars, island, makedon, bask, fin və irland dilləri daxil edilib.

Məqalənin müəllifi Lani Silincer qeyd edib ki, “Qafqaz regionu linqvistlər üçün xəzinədir”.

Məqalədə deyilir: “Cənubi Qafqazın üç ölkəsinin – Ermənistan, Azərbaycan və Gürcüstanın əsas dilləri üç tamamilə fərqli, müvafiq olaraq hind-Avropa, türk və kartvel dil ailələrindən yaranıb. Gürcü dili kartvel qrupunda ən qədimidir və bu, qədim ədəbi ənənələri olan yeganə Qafqaz dilidir. Onun gözəl və nadir əlifbası da kifayət qədər qədimdir, güman olunur ki, bu əlifba hələ bizim eranın üçüncü əsrində aramey əlifbası əsasında yaradılıb. ”.

## TBİLİSİ BEYNƏLXALQ AEROPORTU ŞƏRQİ AVROPADA ƏN YAXŞILAR SIRASINA DÜŞÜB

“Skytrax World Airport Awards 2017” Tbilisi beynəlxalq aeroportunu dalbadal dördüncü dəfə Şərqi Avropanın ən yaxşı hava limanlarından biri hesab edib.

Budabeşt, Tallin, Kiyevin Borispol, Riqa, Belqrad, Tbilisi, Sofiya, Bratislava, Buxarest və Skopiya hava limanları 2017-ci ildə Şərqi Avropanın 10 ən yaxşı aeroportunu təşkil ediblər.

Britaniyanın”Skytrax” məsləhətçi şirkəti 1999-cu ildən dünya aeroportlarında və aviaşirkətlərində xidmətin keyfiyyətini öyrənib qiymətləndirir.

“World Airport Awards 2017” 106 müxtəlif millətdən olan 13 milyondan çox sərnişinin 550 aeroportu qiymətləndirməsinə əsaslanır. Sorğu çərçivəsində sərnişinlər aeroportların xidmətini qiymətləndirirlər.

## TBİLİSİDƏ MÜASİR TRAMVAYLAR HƏRƏKƏT EDƏCƏK



Tbilisi küçələrində müasir tramvay görmək mümkün olacaq. Bu barədə Tbilisi meriyası məlumat yayıb.

Məlumatda bildirilir ki, meriyanın sifarişi ilə Asiya İnkişaf Bankı tərəfindən hazırlanacaq layihədə yerüstü nəqliyyat dəhlizinin tərtibatı, sürətli tramvay sisteminin yaradılması nəzərdə tutulur.

Artıq üç istiqamətdə hərəkət marşurutu müəyyənləşdirilib. Tramvay şəhərin mərkəzindən Ortacala, İsani və Diğomiyə gedib-gələcək.

İlk mərhələdə avtobuslar və metro nəqliyyatına məxsus vaqonlar dəyişdiriləcək. Növbəti mərhələdə isə yeni tramvay xətlərinin çəkilməsi nəzərdə tutulur.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”**

***Redaktor*: Afiq Muxtaroğlu**
***Yayım Direktoru*: Hacı Bakiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.